http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 09 (1627) 16 may 2016 - cı il Qiymәti 50 qәpik



## ATU-da Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş tədbir keçirildi

2



## Yubiley iməcliyi

2



## Müdafiə Nazirliyinin rəhbərliyi ilə görüş

4

BU SAYIMIZDA

## ATU rezidentlərinin 4-cü elmi-təcrübi konfransında



4

## Rektor müharibə veteranları ilə görüşüb



3

## Akademik Vəli Axundovun 100 illik yubileyi qeyd edildi

5

## Tələbələr yeni üsulla dövlət imtahanı verəcəklər

3

## Astma xəstələrinin sayı 400 milyona çata bilər

5



## BASKETBOLÇULARIMIZIN QƏLƏBƏSİ

8

# ATU-da Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş tədbir keçirildi

**Mayın 6-da Azərbaycan Tibb Universitetində ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş tədbir keçirildi.**

Tədbir iştirakçıları əvvəlcə ATU-nun 5 saylı tədris binasındakı Ulu Öndərin büstü önünə əklil və gül dəstələri qoyub, onun nurlu xatirəsini dərin ehtiramla yad etdilər.

Tədris Terapevtik Klinikasında davam edən tədbiri giriş sözü ilə açan universitetin rektoru, professor Gəray Gəraybəyli Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycan xalqı və dövləti qarşısında əvəzsiz xidmətlərindən, elmə və təhsilə, xüsusilə səhiyyə sahəsinə göstərdiyi diqqət və qayğıdan, tibb müəssisələrinin maddi- texniki bazasının möhkəmləndirilməsi və əhalinin sağlamlığı, peşəkar həkim kadrlarının hazırlanması istiqamətində fəaliyyətindən danışdı. O, ümummilli liderin həyat yoluna nəzər salaraq, rəhbər dövlət vəzifələrində çalışdığı müddətdə gördüyü işlər və həyata keçirdiyi layihələr haqqında məlumat verdi.

G.Gəraybəylinin sözlərinə görə, Heydər Əliyevin diqqət və qayğı göstərdiyi sahələrdən biri də səhiyyə olub: "Ulu Öndər səhiyyə sahəsinin inkişafı istiqamətində çox işlər görüb. Yeni səhiyyə ocaqları tikilib, tibb müəssisələri əsaslı təmir edilib, müasir tibb avadanlıqları və aparatlarla təmin edilib".

Rektor bildirdi ki, Azərbaycan digər ölkələrlə müqayisədə böyük ölkə deyil: "Fikrimcə, bu böyük bir xoşbəxtlikdir ki, tanrı elə də böyük olmayan bir ölkəyə Heydər Əliyev kimi şəxsiyyət bağışlayıb. Heydər Əliyev Azərbaycan dövlətçiliyinin ən ağır məqamlarında xilaskar kimi hakimiyyətə gələrək ölkəmizi parçalanmaqdan, dünya xəritəsindən silinmək riskindən qoruyub". G.Gəraybəyli qeyd etdi ki, vaxt var idi bir çox xarici dövlətlər Azərbaycanı tanınmırdı: "Təxminən 30 il bundan əvvəl mən xaricə gedəndə, pasportuma baxırdılar, amma ölkəmi tanımırdılar. İndi isə Azərbaycan tanınır, özünə görə nüfuzu var və buna görə də biz Ulu Öndər Heydər Əliyevə borcluyuq".






Rektor eyni zamanda bildirdi ki, adı tarixdə əbədiləşən dünya şöhrətli siyasətçi Heydər Əliyevin ölkəmizin dövlət müstəqilliyi bərpa edildikdən sonra iki dəfə ATU-da olması, müəllim və tələbələr qarşısında çıxış etməsi, universitetimizin tarixində silinməz izlər qoymuşdur.

Ulu Öndərin müəyyənləşdirdiyi siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayan G.Gəraybəyli qeyd etdi ki, paytaxt Bakıda və eləcə də regionlarda yeni tikilən və əsaslı təmirdən çıxan səhiyyə ocaqlarının ən müasir tibb avadanlıqları ilə təchiz edilməsi bunun əyani təzahürüdür.

Tədbirdə çıxış edən Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov öncə professor Gəray Gəraybəylini ATU-nun rektoru vəzifəsinə seçilməsi münasibətilə təbrik etdi. Bundan sonra unudulmaz şəxsiyyət, dərin zəka sahibi Heydər Əliyevin Azərbaycan elminin və təhsilinin himayədarı olduğunu, bu sahədə çalışanlara, xüsusilə səhiyyə işçilərinə həmişə diqqət və qayğı göstərdiyini xatırlatdı.

Sözünə Heydər Əliyevin Azərbaycan xalqı üçün etdiyi işləri sadalamaqla davam edən A. Əsgərov bildirdi ki, qədirbilən xalqımız Ulu Öndərin bu fədakarlığını heç vaxt unutmur, daim xatırlayır, Azərbaycanı bu günkü günə gətirib çıxardığına görə onu ehtiramla anırlar: "Ümummilli lider Heydər Əliyev Azərbaycan üçün bir tapıntıdır. Çünki Heydər Əliyev ölkəsi üçün işlədiyi müddətdə hər an yalnız xalqının gələcəyini düşünərək, demək olar ki, öz canını fəda etdi. İkinci dəfə Heydər Əliyev hakimiyyətə gəlməsəydi Azərbaycanın xanlıqlara bölünməsi, dünya xəritəsindən silinməsi təhlükəsi yarana bilərdi".



Daha sonra akademik Böyükkişi Ağayev, ATU-nun ictimai fənlər kafedrasının müdiri, professor Qoşqar Əliyev, Əczaçılığın texnologiyası və idarəçiliyi kafedrasının müdiri, professor Məhbubə Vəliyeva, Müalicə-Profilaktika fakültəsinin 4-cü kurs tələbəsi Nailə Şirəliyeva çıxış edərək, Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlərindən söz açdı.

Çıxışlarda qeyd edildi ki, Ulu Öndər Heydər Əliyev ardıcıl, məqsədyönlü dövlətçilik və siyasi fəaliyyəti ilə müstəqil Azərbaycan dövlətinin banisi, xilaskarı və qurucusu olmaqla XX əsrin dünya siyasətində öz sözünü demiş görkəmli tarixi şəxsiyyətdir. Ümummilli liderimizin Azərbaycan səhiyyəsinin, eləcə də Azərbaycan tibb elmi və tibb təhsili sisteminin dayanıqlı, sabit inkişafının təminatına işıq salan ideyaları tükənməz enerji mənbəyimiz və zəngin xəzinəmizdir.

Natiqlər bildirdilər ki, Heydər Əliyev hələ XX əsrin 70-80-ci illərində – ilk dəfə respublikaya rəhbərlik etdiyi dövrdə Tibb İnstitutunun bütün problemlərinə qayğı ilə yanaşıb. Hal hazırda Tibb Universiteti üçün zəngin maddi-texniki baza yaradılıb, tədris korpusları, tələbə yataqxanası, klinika və poliklinikalar tikilib istifadəyə verilib, elmi-tədqiqat laboratoriyaları, müasir cihazlar və avadanlıqlarla təchiz edilib. Bu isə elmi axtarışların əhəmiyyətini artırmağa, tibb sahəsində kifayət qədər kadr potensialı yaratmağa imkan verib.

**MƏNSUR**

# Yubiley iməcliyi

**Ulu Öndər Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi dövrlərdə ictimai həyatın bütün sahələri ilə yanaşı, ölkəmizdə ekologiyanın qorunmasına, ətraf mühitin mühafizəsinə, yaşıllıq sahələrinin salınmasına xüsusi diqqət yetirmiş, bu məqsədlə çoxşaxəli proqramlar qəbul olunmuş və genişmiqyaslı tədbirlər həyata keçirilmişdir. Bu gün Azərbaycanın qurucusu və memarı Heydər Əliyev tərəfindən müəyyən olunmuş ekoloji siyasət ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hər il yüz minlərlə ağac əkilir, yeni- yeni yaşıllıq zolaqları salınır.**





Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə bütün respublika üzrə iməclik və ağacəkmə kampaniyaları keçirilib. Bakının park, bağ və xiyabanlarında abadlıq işləri aparılıb. Ölkəmizin hər yerində olduğu kimi, qabaqcıl ali təhsil müəssisələrindən biri sayılan Azərbaycan Tibb Universiteti də dahi şəxsiyyət Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə silsilə tədbirlər keçirir. Bu tədbirlərin davamı olaraq universitetimizin kollektivi də ümumi yaşıllaşdırma kampaniyasından kənarda qalmayıb.

Bu məqsədlə mayın 10-da Azərbaycan Tibb Universiteti şəhərciyində də bir sıra abadlıq işləri aparılıb. ATU-nun müəllim-tələbələri və təsərrüfat hissəsinin birgə iştirakı ilə şəhərcikdə səliqə-sahman yaradılıb, bardürlər ağardılıb, ağacların dibi bellənib. İməclik zamanı şəhərciyin ərazisində bəzək kolları və xüsusi ləklərdə hazırlanmış 50-yə yaxın gül əkilib.

Tədbirdə ATU-nun rektoru, professor Gəray Gəraybəyli də tələbələrlə birlikdə gül fidanları əkib.

* * *

Elə həmin gün rektor Gəray Gəraybəyli Virtual Test Mərkəzində sonuncu kurs tələbələrinin verdiyi imtahana da baş çəkib. İmtahanların gedişi barədə Virtual Test Mərkəzinin rəhbəri, dosent Şahin Bayramov rektora ətraflı məlumat verib.

**M.ABBASOĞLU**

# Tələbələr yeni üsulla dövlət imtahanı verəcəklər

## OSKİ metodu üzrə imtahanların təşkili üçün müəllimlərə təlim keçirildi

**Mayın 3-də ATU-nun Tədris Cərrahiyyə Klinikasında müəllimlər üçün təlimlər təşkil olunub. Təlimlərin məqsədi Azərbaycanda ilk dəfə olaraq keçiriləcək Obyektiv Strukturlaşdırılmış Klinik İmtahanlarına (OSKİ) hazırlaşmaqdır.**



Azərbaycan Tibb Universiteti növbəti innovativ təşəbbüsün tətbiqinə hazırlaşır. Belə ki, bu il ilk dəfə olaraq ATU-nun müalicə profilaktika fakültəsinin tələbələri dövlət imtahanını test üsulu ilə verəcəklər. İmtahanlara 6-cı kursda təhsil alan 500-ə yaxın tələbə qatılacaq. Tələbələr həmçinin, bacarıq imtahanından keçəcəklər. Məhz bu imtahan dünya standartlarına uyğun olan yeni OSKİ metodu ilə aparılacaq.

ATU-nun rektoru, professor Gəray Gəraybəyli bu sınağın necə keçiriləcəyini bilavasitə izləyib. O, imtahan üçün hazırlanmış mərkəzlə tanış olub, OSKİ-yə hazırlığın səviyyəsi ilə maraqlanıb. G.Gəraybəyli təlim iştirakçıları ilə görüşündə qeyd edib ki, bu imtahanlar tələbələrin praktiki biliklərinin artırılmasına kömək edəcək: "Biz daim vurğulayırıq ki, bəzən tələbələr nəzəri cəhətdən yüksək hazırlıqlı olsalar da, praktiki bilgiləri zəif olur. Bu məsələ Səhiyyə Nazirliyinin kollegiyalarında da qeyd edilir. Ona görə də Tibb Universitetinin rəhbərliyi, kafedra müdirləri tərəfindən daim bu istiqamətdə işlər aparılıb. Bu günkü seminar da görülən tədbirlərin nəticəsidir".

Rektor bildirib ki, ATU-da belə bir innovativ metodun tətbiqi, ilk sınağın nəticələri, müəllim və tələblərin təəssüratları gələcəkdə bu imtahanın daha təkmil keçirilməsinə kömək edəcək.

ATU-nun tədris metodik və innovasiya şöbəsinin müdiri Akif Qurbanov bildirdi ki, OSKİ metodu klassik imtahanlardan köklü şəkildə fərqlənir: "Buna görə də imtahandan keçəcək tələbələrlə yanaşı, imtahan götürəcək müəllimlər üçün də təlimlərin keçirilməsi nəzərdə tutulub.

Bu gün təşkil olunan treyninqdə ATU rəhbərliyinin nümayəndəsi, dövlət imtahan komissiyasının nümayəndələri və müəllimlər iştirak etdilər. Təlimlər zamanı sınaq məqsədilə 3 fənn üzrə – daxili xəstəliklər, cərrahiyyə və mamalıq-ginekologiya üzrə imtahan aparıldı. Təlimdə ATU-nun 60-a yaxın müəllimi iştirak etdi".

Qeyd edək ki tibb təhsili sahəsinə aid olan OSKİ imtahanları dünyanın əksər ölkələrində tətbiq olunur. Azərbaycanda ilk dəfə olaraq ATU tələbələri bu üsulla dövlət imtahanı verəcəklər.

# İmtahanların təşkili məqsədilə təlimlər davam edir

**• Mayın 4-də ATU-nun 4 saylı tədris korpusunda tələbələr üçün bu qəbildən təlim təşkil olunub. Tədbirin məqsədi Azərbaycanda ilk dəfə olaraq keçiriləcək Obyektiv Strukturlaşdırılmış Klinik İmtahan (OSKİ) haqqında sonuncu kurs tələbələrini daha ətraflı məlumatlandırmaqdan ibarət olmuşdur.**

Müalicə-profilaktika fakültəsində bu ilki Dövlət imtahanları iki mərhələdə keçiriləcəkdir. İmtahanların birinci mərhələsi bacarıqların qiymətləndirilməsi, ikinci mərhələsi isə test üsulu ilə aparılacaqdır.

Daha sonra professor A.Qurbanov tələbələri tətbiq edilcək yeni imtahan üsulunun prinsipləri, aparılma qaydası və qiymətləndirmə meyarları ilə tanış etmiş, onları maraqlandıran suallara cavab vermişdir.





Müalicə-profilaktika fakültəsinin sonuncu kurs tələbələri qarşısında çıxış edən ATU-nun tədris-metodik və innovasiya şöbəsinin müdiri, professor Akif Qurbanov bacarıqların tədrisi və qiymətləndirilməsinin müasir tibb təhsilindəki rolundan danışmışdır. Bir neçə il bundan qabaq bacarıqların tədrisinə və qiymətləndirilməsinə başlandığını diqqətə çatdıran professor sonuncu kurs tələbələrinin ən azından minimal həkimlik bacarığına malik olmalarının vacibliyinə toxunmuşdur. O, bacarıqların qiymətləndirilməsi üçün tətbiq olunan Obyektiv Strukturlaşdırılmış Klinik İmtahanın klassik imtahanlardan fərqləndiyini bildirmişdir. Qeyd olunmuşdur ki,

II müalicə-profilaktika fakültəsinin dekanı, dosent Taryel İsmayılov təqdimata görə professor Akif Qurbanova təşəkkürünü çatdırmış və tələbələrə imtahanlarda uğurlar arzulamışdır.

Qeyd edək ki, bacarıq imtahanında tələbələrin toplaya biləcəyi maksimal bal 50, keçid balı 17-dir. Bacarıq imtahanları ATU-nun Tədris Cərrahiyyə Klinikasının Treninq Mərkəzində baş tutacaq. Artıq mərkəzdə OSKİ keçirilməsi üçün xüsusi məntəqələr hazırlanmış, lazımi avadanlıqla təchiz edilmiş və digər təşkilati işlər görülmüşdür.

# Rektor müharibə veteranları ilə görüşüb

Mayın 6-da Azərbaycan Tibb Universitetində 9 May Qələbə Günü ilə bağlı II Dünya müharibəsi və arxa cəbhə veteranları ilə görüş keçirildi.



Tədbiri giriş sözü ilə açan ATU-nun rektoru, professor Gəray Gəraybəyli Böyük Vətən Müharibəsi veteranlarını və tədbir iştirakçılarını faşizm üzərində Qələbənin 71-ci ildönümü münasibətilə təbrik etdi. "Müharibə illərində göstərdiyiniz fədakarlığı heç vaxt unutmayacağıq" – deyən rektor Gəray Gəraybəyli qeyd etdi ki, Azərbaycan xalqı istər ön, istərsə də arxa cəbhədə çox böyük qəhrəmanlıqlar edib: "Müharibədə qazanılan qələbədə Azərbaycanın böyük payı var. 700 minə yaxın azərbaycanlı bu müharibədə iştirak edib, onların təxminən yarısı həlak olub".

O, həmçinin ATU-da bu bayramın qeyd edilməsinin, veteranlarla görüşün çox gözəl ənənə olduğunu bildirib: "Uşaqlıqdan 9 may günü bizim üçün ən xoş, sevimli bayramlardan idi. Bir ara Qələbə bayramının daha qeyd olunmayacağı kimi söhbətlər ortaya çıxdı, lakin fikrimcə bu, tamamilə yalnış fikir idi. Yaxşı ki, Ulu öndər Heydər Əliyev zamanında bu məqama diqqət yetirdi və bu bayramın ölkəmizdə də təntənəli şəkildə qeyd olunmasına qərar verdi".

Görüşdə ATU-nun Həmkarlar İttifaqı Komitəsinin sədri Cahangir Qasımov, ATU-nun Mülki Müdafiə Qərargahının rəisi Firdovsi Məmmədov da iştirak ediblər.

Tədbirdə universitetdə çalışan müharibə veteranları və "1941-1945-ci illərdə vətən müharibəsində fədakar əməyə görə" medalı ilə təltif edilmiş arxa cəbhə veteranları ATU rəhbərliyi tərəfindən hərbi vətənpərvərlik mövzusunun təbliğində xüsusi fəallıqlarına görə mükafatlandırılıblar.

ATU-nun veteran təmsilçiləri – terapevtik stomatologiya kafedrasının dosenti, müharibə veteranı Rüstəm Mirzəyev, uşaq və yeniyetmələrin gigiyenası kafedrasının dosenti, arxa cəbhə veteranları Rəhim Orucov, kommunal və qidalanma gigiyenası kafedrasının professoru Maqsud Qasımova 500 AZN məbləğində pul mükafatı və hədiyyələr təqdim olunub.

Müharibə veteranları da göstərdiyi diqqət və qayğıya görə rektor Gəray Gəraybəyliyə təşəkkürlərini bildirərək müharibə illəri ilə bağlı xatirələrini danışıblar.

Tədbirdə qeyd edilib ki, təqribən 130 nəfər azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 30 nəfər "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif edilib. Azərbaycandan olan 170 min əsgər və zabit SSRİ-nin müxtəlif orden və medalları ilə təltif olunub.

# "Eşidə bilməyən uşaqları tam sağaltmaq olur"

**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında son bir həftə ərzində daha 5 uğurlu koxlear əməliyyatı həyata keçirilib.**



Klinikanın qulaq-burun-boğaz şöbəsinin müdiri, uzman-həkim Yusif Hacıyev və komandası tərəfindən icra edilən bu əməliyyatlardan 4-ü dövlət hesabına həyata keçirilib.

Yusif Hacıyevin sözlərinə görə, daxili qulağın protezləşməsi əməliyyatları sayəsində anadangəlmə, eşitməyən əlil statusunda olan uşaqların eşitməsi bərpa olunur: "Artıq həmin körpələrə implant taxılıb, bu uşaqlar artıq heç bir şəkildə digərlərindən fərqlənməyəcək, normal səviyyədə inkişaf edəcək, hətta danışıqları da gecikməyəcəkdir. Əminəm ki, bu uşaqlar gələcəkdə qarşımıza müəllim, mühəndis, həkim və s. kimi sənət sahələrinə yiyələnmiş vətəndaş olaraq çıxacaqlar".

Qeyd edək ki, koxlear əməliyyat anadangəlmə problemi olan uşaqlarda tətbiq edilir, həmçinin sonradan bu qabiliyyətini itirən uşaqlara da implant qoyulur.

Həkim Y.Hacıyev bir daha vurğulayır ki, uşaqlarda bu problemin qarşısını almaq üçün vaxtında müayinə çox böyük önəm kəsb edir: "Bütün valideynlərə məsləhətimiz odur ki, eşitmədə hansısa bir problem hiss edən kimi həkimə müraciət etsinlər".

Eşitmə qüsuru olan uşaqlarla bağlı istənilən zaman ATU-nun Tədris Cərrahiyyə Klinikasına müraciət etmək mümkündür. Burada uşaqlar müayinə, müalicə və uğurlu əməiyyat olunaraq birdəfəlik bu problemdən qurtula bilər.

**ATU-nun mətbuat xidməti**

# ATU rezidentlərinin 4-cü elmi-təcrübi konfransında

**Mayın 13-də ATU-nun böyük akt zalında Azərbaycan Tibb Universiteti Rezidentlərinin 4-cü Elmi-təcrübi konfransı (ATUREK-4) keçirildi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr edilmiş konfransın əvvəlində tədbir iştirakçıları foyedə rezidentlərin elmi-tədqiqat işlərini əks etdirən pasterlə tanış oldular.**




Konfrasın açılışı zamanı professor-müəllim heyətini, rezidentləri və qonaqları salamlayan universitetin rektoru, professor Gəray Gəraybəyli Azərbaycan Tibb Universiteti Rezidentlərinin Elmi-Təcrübi Konfransının (ATUREK) rezidentlər üçün əhəmiyyətindən danışaraq qeyd etdi ki, rezidentlər yüksək ixtisaslı mütəxəssis, həkim kimi hazırlanmaqla yanaşı, elmi-tədqiqat işlərinə də cəlb olunmalıdır. O, rəhbərlik etdiyi universitetin baza təhsilindən sonra rezidenturaya qəbul olmuş həkimlərin ixtisas hazırlığı ilə məşğul olan ən qabaqcıl müəssisələrdən biri olduğunu xatırlatdı: “Son illər təhsil sistemində, xüsusilə tibb təhsili sistemində böyük islahatlar, dəyişikliklər baş verib. Bu islahatlar çərçivəsində ənənəvi birpilləli təhsil sistemindən ikipilləli rezidentura mərhələsinin yaranmasını şəxsən mən inqilabi bir proses kimi qiymətləndirirəm. Artıq 5 ildir ki, ali tibb təhsili əsasında həkim mütəxəssislərin hazırlanması məqsədilə rezidentura səviyyəsində qəbul həyata keçirilir. ATU-nun rezidentura üzrə ilk məzunları ölkəmizin müasir klinikalarında müstəqil həkim kimi fəaliyyət göstərirlər. Həmçinin, ATU-nun bütün klinikalarında rezidentlərin çalışması üçün ən müasir imkanlar yaradılıb, onlar xəstələrin müayinə və müalicəsinə cəlb olunublar”.

İlk dəfə 2013-cü ildə keçirilən ATUREK-in universitetimizdə ənənəyə çevrildiyini bildirən rektor bu konfransların rezidentlər və mütəxəssislər arasında təcrübə mübadiləsinin aparılmasına, onların elmi əlaqələrinin gücləndirilməsinə imkan yaratdığını vurğuladı.

Çox çətin tarixi mərhələdə yaşamağımıza, ölkəmizin ətrafında geosiyasi təlatümlərin və iqtisadi böhranların davam etməsinə baxmayaraq, Azərbaycanın təhsil, səhiyyə sahəsindəki uğurlarını ölkə başçısının uzaqgörən siyasətinin nəticəsi kimi dəyərləndirən G.Gəraybəyli gənclərin gələcəyinə xüsusi diqqət ayrıldığını söylədi. Bu baxımdan Səhiyyə Nazirliyinin diqqət və qayğısı sayəsində elmi-təcrübi konfransların daha geniş, zəngin formatda keçirildiyini vurğulayan rektor təkcə Tibb Universiteti rezidentlərinin deyil, ölkəmizin digər bazalarından olan rezidentlərin də bu konfransa elmi işlər təqdim etməsinin müsbət hal olduğunu diqqətə çatdırdı.





G.Gəraybəyli bu konfransların növbəti illərdə respublikamızın bütün bazalarında rezidentura pilləsini keçən həkimlərimizin əsas elmi karyerasına çevriləcəyinə ümid etdiyini də dedi: “Mən arzu edərdim ki, respublikanın bir çox bazalarında hazırlıq keçən rezidentlərin elmi işləri konfranslarımızda səslənsin. Bu həm digər bazalarda da elmin inkişafına gətirib çıxaracaq, həm də həkimlərin, gələcək alimlərin biri-birinə olan münasibətlərinin qurulmasına, tədqiqatların aparılmasına, kafedralar və klinikalar arasında intiqrasiyaya, birgə layihələrin həyata keçirilməsinə stimul verəcək”.

Kimin qalib seçiləcəyindən asılı olmayaraq, rezidentlərin hamısını və onların elmi rəhbərlərini təbrik edən G.Gəraybəyli nitqinin sonunda konfransın işinə uğurlar dilədi.

Konfransın işini davam etdirən universitetin elmi işlər üzrə prorektoru, professor İbrahim İsayev yüksək ixtisaslı mütəxəssis olmaq arzusu ilə universitetimizə qəbul olunan rezidentlərin Aərbaycanda tibb elminin gələcəyinin müəyyənləşdirilməsindəki rolundan söhbət açdı.

Bundan sonra konfransın gündəliyində duran məruzələri diqqətə çatdıran prorektor bu gün çıxış edən hər bir rezidentin gələcəkdə aparıcı mütəxəssis, alim kimi yetişəcəyinə inamını ifadə etdi.

Müxtəlif kafedraları təmsil edən rezidentlərin böyrək transplantasiyası, koronar xəstəliklər, tənəffüs yolu xəstəlikləri, uşaqlarda infeksiyalar və digər mövzularda hazırladıqları elmi məruzələr dinlənildi.

Daha sonra konfrans işini bölmə iclaslarında davam etdirdi.

İki gün davam edən konfransda yekun nitqi söyləyən universitetin elmi işlər üzrə prorektoru, professor İbrahim İsayev bu cür beynəlxalq konfransların universitetimizdə keçirilməsinin artıq bir ənənə şəkli aldığını və gələcəkdə də davam etdiriləcəyini bildirdi: “Hər il may ayında ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunmuş konfranslar keçirilir ki, bunlardan biri də Azərbaycan Tibb Universitetində təhsil alan rezidentlərin ənənəvi konfransıdır. Hörmətli rektorumuz, professor Gəray Gəraybəylinin vurğuladığı kimi, əsas məqsədimiz rezidentlərin yalnız yüksək ixtisaslı mütəxəssis kimi yox, həm də bacarıqlı elmi-tədqiqatçı kimi yetişməsinə nail olmaqdır”. Azərbaycan Tibb Universitetində və eləcə də ölkəmizin digər tibb müəssisələrində təhsil alan rezidentlərin gündəlik işlərində rast gəldikləri maraqlı kliniki müşahidələrə, aparılan elmi tədqiqatların nəticələrinə dair qarşılıqlı müzakirələrin zəruriliyini də önə çəkən İ.İsayev dinlənilən 100-dən artıq məruzədə tələbətin ən aktual problemlərinə toxunulduğunu bildirdi.

Universitet rəhbərliyi adından konfransın təşkilatçılarına minnətdarlığını çatdıran prorektor konfransın yüksək səviyyədə təşkili, formalaşması, beynəlxalq stantartlara uyğun keçirilməsində rezidentura şöbəsinin rəhbəri, professor Rizvan Məmmədov, Tədris Terapevtik Klinikanın direktoru, professor Surxay Musayev və klinikanın baş həkimi, dosent Ramin Bayramlının əməyini yüksək qiymətləndirdi.

Konfransın yekununda münsiflər heyəti tərəfindən seçilmiş ən maraqlı məruzələrin müəllifləri xüsusi hazırlanmış plaket, diplom və hədiyyələrlə mükafatlandırıldı. Həmçinin, konfransın bütün iştirakçılarına sertifikatlar təqdim olundu.

ATUREK-4 konfransın ilk gününün gedişatını özündə əks etdirən video çarxın nümayişi ilə başa çatdı.

Konfransın sonunda iştirakçılar xatirə şəkli çəkdirdilər.

**Arif MƏMMƏDLİ**

**Fotolar Cənnətalı Çingizindir**

# Müdafiə Nazirliyinin rəhbərliyi ilə görüş

**Azərbaycan Tibb Universitetinin hərbi tibb fakültəsində Müdafiə Nazirliyinin Tibb Baş İdarəsinin zabitləri, Silahlı Qüvvələrin baş tibb mütəxəssisləri və tibb müəssisələrinin rəhbərləri ilə görüş olub.**





Müdafiə Nazirliyindən Trend-ə verilən məlumata görə, müharibə şəraitində yaşadığımız zamanda hərbi həkim kadrlarının hazırlanmasının vacibliyini vurğulayan Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyev qarşıda duran vəzifələrdən danışıb və şəxsi heyətin diqqətinə müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırıqlarını çatdırıb.

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli də öz növbəsində fakültənin maddi-texniki bazasından və tədris otaqlarında yaradılan şəraitdən razılığını bildirib. Müəllim və kursant heyəti ilə görüşdən məmnunluğunu ifadə edən rektor pedaqoji kollektivin bundan sonra da həm xidmətdə, həm də kadrların hazırlanmasında böyük uğurlar qazanacağına ümidvar olduğunu bildirib.

Hərbi tibb fakültəsinin rəisi, tibb xidməti polkovniki Fəxrəddin Ağayev isə vurğulayıb ki, fakültənin müəllim və mütəxəssisləri bundan sonra da üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gələrək hərbi səhiyyəmiz üçün yüksək səviyyəli kadrlar hazırlayacaqlar.

# Akademik Vəli Axundovun 100 illik yubileyi qeyd edildi

**Mayın 3- də Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında görkəmli alim, tanınmış ictimai –siyasi xadim, tibb elmləri doktoru, professor, akademik Vəli Yusif oğlu Axundovun 100 illiyinə həsr edilmiş toplantı keçirildi.**

*"Akademik Vəli Axundov böyük alimdir. Lakin o tarixdə görkəmli ictimai – siyasi xadim kimi qalıb".*

**Ümummilli lider Heydər Əliyev**





Toplantını giriş sözüylə açan ATU-nun rektoru, professor Gəray Gəraybəyli qeyd etdi ki, Ulu Öndər Heydər Əliyevin qoyduğu gözəl bir ənənə var. Xalqımız, millətimiz elmimiz, təhsilimiz, səhiyyəmiz, mədəniyyətimiz qarşısında böyük xidmətləri olan insanların xatirəsi daim anılır, yubiley mərasimləri keçirilir. Cəmiyyətdə böyük nüfuz qazanmış alimlərin keçdiyi həyat yolu bir daha xatırlanır. Akademik V.Axundovun həyat və fəaliyyəti barədə qısa məlumat verən rektor bildirdi ki, universitetimizin yetirməsi olan bu görkəmli alim, ictimai- siyasi xadimin Azərbaycanın inkişaf tarixində böyük rolu olub".

Professor G.Gəraybəyli xatırlatdı ki, vaxtilə ümummilli lider Heydər Əliyevin fərmanına əsasən, Vəli Axundovun 80 illik yubileyi respublikamızda təntənəli şəkildə qeyd olunub. Universitetimiz də bu ənənəyə sadiq qalaraq və prezident cənab İlham Əliyevin müvafiq fərmanına uyğun olaraq bu görkəmli şəxsiyyətin 100 illik yubileyi münasibətilə geniş toplantı keçirir.

Sözünə davam edən rektor akademik V.Axundovu sovet dövrünün ən istedadlı, hazırlıqlı, mədəni və geniş dünyagörüşünə malik bir şəxsiyyəti kimi qiymətləndirdi: "Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi kimi Vəli Axundov Azərbaycanın həyatı üçün taleyüklü qərarlarla çıxış edib. O, uzun illər dövlət idarəçiliyi sahəsində ən məsul vəzifələrdə çalışarkən təqdirəlayiq fəaliyyət göstərib və tibb alimi kimi respublikada səhiyyə işinin təşkilinə böyük töhfələr verib".

Sonra epidemiologiya kafedrasının müdiri İbadulla Ağayev mərhum akademikin keçdiyi şərəfli həyat yolu və peşəkar fəaliyyəti barədə geniş məruzə ilə çıxış etdi. Akademik Vəli Axundovun həm tibb nümayəndəsi, həm də görkəmli ictimai-siyasi xadim kimi şəxsi keyfiyyətləri haqqında danışan natiq vurğuladı ki, o, 1916-cı ildə Bakının Saray kəndində ruhani-ziyalı ailəsində anadan olub. 1941-ci ildə Tibb İnstitutunu bitirdikdən sonra cəbhəyə gedib: "Cəbhədə apardığı saysız əməliyyatlar haqqında sonralar bütün ordu qəzetlərində silsilə məqalələr dərc olunurdu. Berlinə qədər rəşadətli döyüş yolu keçən V.Axundov faşizmə qarşı mübarizədə yaralanmış əsgər və zabitləri cərrahi əməliyyat edərək həyata qaytarıb".

Müharibədən sonraki illərdə V.Axundov Azərbaycan Dövlət Tibb İnstitutuna qayıdıb və tibb tarixi kafedrasında assistent vəzifəsində işə başlayıb. Parlaq zəka sahibi olan V.Axundov 1946-cı ildə Respublika tibb işçiləri həmkarlar komitəsinin sədri təyin olunub. Səhiyyə naziri vəzifəsinə yüksələn V.Axundov sonradan düz 10 il ərzində Azərbaycana rəhbərlik edib. Azərbaycan Kommunist Partiyasının birinci katibi vəzifəsində işlədiyi dövrlərdə Naxçıvan və Qarabağın peşkəş kimi Ermənistana verilməsinə mane olub.

1969-cu ildə Azərbaycan Elmlər Akademiyasının akademiki seçilmiş və 1972-ci ilə kimi akademiyanın vitse-prezidenti olmuşdur.

Vəli Axundov 1972-ildən ömrünün sonuna kimi – 1986-cı ilin avqustunun 22- ə qədər Q. Musabəyov adına Virusologiya, Mikrobiologiya və Gigiyena İnstitutunun direktoru vəzifəsində işləyib.

Vəli Axundovla bağlı xatirələrindən danışan İbadulla Ağayev özünün də karyerasında bu şəxsin müstəsna rolu olduğunu bildirdi. O, qeyd etdi ki, Vəli müəllimin əməksevərlik və insanlıq ləyaqəti nümunəsi olan ömür yolu nəinki gənc həkimlərə, hətta bütün gənclərə də örnək ola bilər. Bu böyük şəxsiyyətdən dərs almaq, onun yaxınına çevrilmək və vaxtilə onunla bir yerdə işləməkdən qürur duyduğunu da dilə gətirdi.

Tədbirdə qidalanma və kommunal gigiyena kafedrasının professoru, Maqsud Qasımov görkəmli alimin tibbi uğurlarından və onunla yaxın dostluq münasibətlərindən bəhs etdi. O, bildirdi ki, ötən əsrin 70-ci illərində SSRİ məkanında, Ukraynanın bir neçə vilayətində, həmçinin Orta Asiyada vəba xəstəlikləri epidemiyası başlayıbmış. Həmin dövrdə epidemiyanın Azərbaycanda yayılma ehtimalının sıfıra endirilməsi üçün Bakının baş planına baxılması məhz Vəli Axundova həvalə olunmuşdu. O, həmin vaxtlar Vəli Axundovla birgə bu layihənin işində yaxından iştirak etdiyini və onun böyük təşkilatçılıq qabiliyyətinə malik olduğunu diqqətə çatdırdı.

Daha sonra Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun kafedra müdiri Fərhandə Sadıxova, ATU-nun Uşaq və yeniyetmələr gigiyenası kafedrasının professoru Rüxsarə Əliyeva Vəli Axundovun bütün uğurlu həyatı boyu amalını insanlara xidmətdə görən, çətin dövrdə bütöv bir respublikaya başçılıq edən işıqlı şəxsiyyət olduğunu qeyd etdilər. Uzun illər keçməsinə baxmayaraq V.Axundovun xatirələrdə daim xeyirxah və nəcib əməlləri ilə yaxşı insan kimi xatırlanacağını vurğuladılar.

Tədbirin sonunda görkəmli alimin qızı Nigar Axundova atasının xatirəsinin yad edilməsinə görə təşəkkürünü bildirdi: "Bu, çox xoş haldır ki, biz bu silsilə tədbirlərə ilk olaraq Azərbaycan Tibb Universitetindən başlayırıq. Çünki bu bilik ocağı atamın həyatında ayrılmaz bir yer tutub. Onu da deyim ki, anamla da atam məhz burda tanış olub. Bu baxımdan, Tibb Universiteti bizim üçün doğma bir məkandır". Nigar Axundova ATU-nun tarixi ilə bağlı maraqlı faktı da açıqladı. O, Vəli Axundovun nazir olarkən Azərbaycan Tibb İnstitutuna Nəriman Nərimanovun adının verilməsi haqqında yazdığı məktubu təqdim etdi.

Toplantıda çıxış edənlərin hər biri akademik V.Axundovun nurlu siması, xeyirxah əməlləri, saf əqidəsindən söhbət açdılar, onu qayğıkeş həkim, istedadlı alim və əsl ziyalı kimi xatırladılar. Çıxışlarda onun respublikamızda gigiyena elminin inkişafındakı rolu qeyd edildi, görkəmli səhiyyə təşkilatçısı, demokratik və həqiqətpərvər şəxsiyyət kimi ehtiramla yad olundu.

Toplantıda Tibb Universitetinin rəhbərliyi, Səhiyyə Nazirliyinin, həmçinin respublikamızın elm-tədqiqat institutlarının nümayəndələri və digər qonaqlar iştirak edirdilər.

**M.ƏLƏKBƏRLİ**

# Astma xəstələrinin sayı 400 milyona çata bilər

Mayın 4-də Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında Ümumdünya Astma Gününə həsr olunmuş "Səbəb və Təsir: Allergik Rinit və Astma Arasında Qarşılıqlı Əlaqə" mövzusunda tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan pediatr-allerqoloq, professor Amaliya Əyyubova astmalı xəstələrə dəstək baxımından belə tədbirlərin keçirilməsinin çox önəmli olduğunu bildirib: "Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən belə tədbirlər hər il keçirilir. Astmalı uşaqlar daima həkim nəzarətində olmaqla bu xəstəlikdən müəyyən mənada qoruna bilər. Biz valideynlərə də hər zaman bildiririk ki, belə uşaqlara xüsusi qulluq edilməlidir. Astmalı uşaqlar üçün daima pəhriz proqramı tətbiq edilməli və onlar əlverişli iqlim şəraitində yaşamalıdır".

A.Əyyubova onu da qeyd edib ki, 2015-ci ildə



dünyada 300 milyon astma xəstəsi olub: "Bu da dünya əhalisinin təxminən 5%-ni təşkil edir. ÜST-nin proqnozuna görə, bu rəqəm 2020-ci ildə 400 milyona çatacaq. Bəzi alimlər belə hesab edirlər ki, astma ölümlə nəticələnən bir sıra xəstəliklərdən daha çox yayılıb".

Allergiyanın ən çox uşaqlar arasında geniş yayıldığını vurğulayan A. Əyyubova belə uşaqların daima həkim nəzarətində saxlanılmasının vacibliyini vurğulayıb: "Hər il keçirilən bu tip tədbirlərlə əhali arasında maarifləndirməni yüksəltməyə çalışırıq ki, valideynlər bu cür problemləri olan uşaqlarını vaxtında həkimə gətirsinlər".

A.Əyyubova qeyd edib ki, uşaqlarda bu xəstəliyin yayılma səbəbi süni qidalanma, şirniyyatlardan, sitrus meyvələrindən, antibiotiklərdən həddindən artıq çox istifadədir. Bu da allergiyanı yaradan başlıca səbəblərdir: "Bu gün müasir diaqnostik metodlardan istifadə bizə xeyli imkanlar verir. Nəticədə də astmalı xəstələrin həyat tərzini yaxşılaşdırmaq imkanımız olur. Yeni innovativ metodların da tapılması, bəlkə də bu xəstəliyi yaxın gələcəkdə tam müalicə etmək imkanı verəcək".

Daha sonra allerqoloq, immunologiya kursunun müdiri, professor Lalə Allehverdiyeva bronxial astma xəstəliyindən danışıb. Qeyd edib ki, bu xəstəlik çox ciddi və qlobal problemə çevrilib: "Bu gün Azərbaycanda da bronxial astma çox geniş yayılıb. Dünyada isə bronxial astma son dövrlərdə 18%-ə qədər çatıb ki, bu da həmin insanların yaşadıqları iqlim şəraitindən çox asılıdır. Bu xəstəlikdə ölüm faizi dünya üzrə 250 mindir. Hər il astmadan 15 milyon adam əmək qabiliyyətini itirir. Bütün bunlara baxmayaraq, son dövrlərdə tibb astma sahəsində çox böyük nailiyyətlər əldə edib".

Tədbirin sonunda isə "Astma və allergik rinit" mövzusunda Böyük Britaniyadan professor, fəxri həkim-məsləhətçi Peter Hovarthın birbaşa on-line mühazirəsi dinlənilib.

Hesablamalara görə, 2020-ci ildə bəzi ölkələrdə, xüsusilə Avropada hər ikinci adam allergik astma xəstəliyinə tutula bilər.

**Pərvin ARZUQIZI**

# Ulu öndər Heydər Əliyevin 93-cü ildönümünə həsr edilmiş TEC-in konfransları

**İctimai fənlər kafedrasında Ulu Öndər Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr edilmiş Tələbə Elmi Cəmiyyətinin növbəti konfransı keçirilib.**



Konfransı açan ictimai fənlər kafedrasının müdiri, professor Qoşqar Əliyev öncə erməni hərbi birləşmələrinin sərhədyanı bölgələrdə törətdikləri təxribatların qarşısının milli ordumuz tərəfindən qəhrəmancasına alınmasına toxunub.



Torpaqlarımızın müdafiəsi zamanı şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Qazanılmış qələbə və xalqımızın döyüş əhval-ruhiyyəsinin yüksək olmasının sevindirici hal olduğunu söyləyən natiq bildirib ki, kafedramızda keçirilən bu konfranslar hər il ənənənəvi olaraq Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyasının öyrənilməsi və milli - mənəvi dəyərlərimizin qorunub saxlanılması üçün çox əhəmiyyətlidir. Ulu Öndərin Azərbaycan təhsilinə göstərdiyi qayğıdan söhbət açan Q. Əliyev vurğulayıb ki, ümummilli lider Heydər Əliyev həmişə gənclərin yaxşı təhsil almasına və onların uğurlu karyera, gözəl gələcək qurmalarına diqqətlə yanaşıb.

Konfransda 15 tələbənin Ulu Öndər Heydər Əliyevə həsr edilmiş məruzəsi dinlənilib. $35^a$ qrup tələbələri Əli Quliyev "Heydər Əliyev ideyaları xalqımızın mili-mənəvi dəyərlərinin formalaşmasının məbədidir", Aynurə Şadlinskaya "Dövlət dilimizin böyük himayədarı", Hüseyn Hüseyinli "Heydər Əliyev və XX əsrin neft kontraktı", $44^a$ qrup tələbəsi Əfsanə Bayramova "Heydər Əliyev və gənclər siyasəti", $1^b$ qrup tələbələri Ləman Kərimli "Heydər Əliyev dünya miqyaslı siyasətçidir", Gülgəz Ələkbərova "Heydər Əliyevin Azərbaycana ikinci qayıdışı", $10^a$ qrup tələbələri Şükriyyə Əliyeva "Heydər Əliyev milli intibahımızın banisidir", Hidayət Rüstəmzadə "YAP-milli inkişafımızda aparıcı qüvvədir", $6^b$ qrup tələbəsi Nərmin Nemətzadə "XX əsrin qüdrətli siyasi lideri" mövzusunda çıxış ediblər.

Konfransın sonunda kafedra əməkdaşlarının yazmış olduğu üç adda kitab tələbələrə hədiyyə edilib.

**"Tibbi biologiya və genetika" kafedrasında mayın 4-də I müalicə-profilaktika fakültəsinin nəzəri təbabət bölməsi üzrə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr edilmiş Tələbə Elmi Cəmiyyətinin konfransı keçirilib.**



Konfransı giriş nitqi ilə açan I müalicə-profilaktika fakültəsinin dekanı, professor Abuzər Qazıyev aprelin əvvəlində təmas xəttində baş vermiş hadisələrdən, həmçinin, Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətləri barədə konfrans iştirakçılarına ətraflı məlumat verdi. Dekan A.Qazıyev çıxışında tələbələrin elmə olan həvəsindən, elmi idrak metoduna yiyələnməsindən və gələcəkdə alimlər siyahısına öz adlarını yazdıra biləcəklərindən danışdı. Konfransın işinə uğurlar arzulayan dekan sözü məruzəçi tələbələrə verdi.

Konfransda müxtəlif elmi mövzulara dair məruzələr dinlənildi. İctimai fənlər kafedrasının məruzəçi tələbələri Heydər Əliyevin onlar üçün vətənpərvərlik, mərdlik, mübarizlik nümunəsi olmasından və Azərbaycan xalqının əbədiyaşar lideri kimi daim qəlblərində yaşayacağından danışdılar. Onlar bildirdilər ki, bu gün hər biri dahi rəhbərin qurub yaratdığı, dünyaya tanıtdığı müstəqil Azərbaycanın vətəndaşları olmaları ilə fəxr edirlər. Qeyd olundu ki, dahi şəxsiyyətin siyasi kursunu bu gün möhtərəm Prezident cənab İlham Əliyev uğurla və qətiyyətlə davam etdirir.

Konfransın sonunda məruzəçi tələbələrdən Namazova Sevinc, Adışirinli Lamiyə, Quliyev Əli, Osmanlı Gündüz, Kazımlı Məhsəti, Nəbili Zöhrə, Bayramova Əfsanə və Talıbzadə Yasəmən diplomlara, digər tələbələr isə sertifikatlara layiq görüldülər.

Konfransın təşkilində göstərdiyi köməkliyə görə I müalicə-profilaktika fakültəsi üzrə TEC-in sədri Rüstəmli Ümidə münsiflər heyəti və iştirakçılar adından təşəkkürümüzü bildiririk.

**L.SÜLEYMANOVA**
*Tibbi biologiya və genetika kafedrası üzrə TEC-in sədri*

◆ **Mayın 6-da Əczaçılıq fakültəsinin Tələbə Elmi Cəmiyyətinin elmi konfransı keçirilib. Almaniyanın "Denk Pharma" əczaçılıq şirkətinin Azərbaycandakı nümayəndəliyinin maliyyə dəstəyi ilə baş tutan konfransa 26 tələbə qatılıb. Onlar konfransa ümumilikdə 23 elmi iş təqdim ediblər.**





Bunlardan 4 tələbə üzrlü səbəblərə görə konfransda iştirak etməyib. 22 tələbə (19 iş) isə yerlər uğrunda mübarizə aparıblar. Obyektiv şəraitdə keçirilən qiymətləndirmədə hər bir tələbə diqqətlə dinlənilib və onlar mövzu ətrafında suallarıcavablandırıblar.

Qeyd edək ki, tələbələrin işlərini dosent N.Məmmədova (sədr), professor T.Süleymanov, professor C.İsayev, professor E.Qarayev, dosent V.İskəndərov, dosent N.Zülfüqarova, baş müəllim S.Tağıyev və baş müəllim S.Babayevadan ibarət münsiflər heyəti dəyərləndirib.

Qalib olmuş tələbələrə pul mükafatı, iştirak edənlərə, həmçinin münsiflər heyətinə hədiyyələr və müvafiq sertifikatlar verilib.

Birinci yerə iki elmi iş-Nuri Mədinə Vaqif qızı (rəhbəri professor. E.Qarayev) və Usubova Rufana Baba qızı (rəhbəri baş müəllim Ş.Akimova) layiq görülüb. Hər iki tələbə ayrılıqda 100 manat dəyərində pul mükafatı alıb və I dərəcəli diplomlarla təltif olunublar. İkinci yerə layiq görülənlər isə 75 manat dəyərində pul ilə mükafatlandırılıblar və II dərəcəli diplomlarla təltif olunublar. Bu yerlərə Nəsibli Validə Rizvan qızı (rəhbəri professor Y.Kərimov) və Babayeva Turan Elnur qızı, Məmmədli Xədicə Namiq qızı (rəhbəri professor V.Əsmətov) layiq görülüb. Üçüncü yerə isə yenə 2 elmi iş - Axundzadə Rəna Orxan qızı (rəhbəri dosent V.İskəndərov) və Fərəczadə Fidan Namiq qızı (rəhbəri baş müəllim S.Tağıyev) layiq görülüb. Bu tələbələr hər işə görə ayrılıqda 50 manat dəyərində mükafatlandırılıb və III dərəcəli diplomlarla təltif olunublar.

Digər iştirakçılar Almaniyanın "Denk Pharma" əczaçılıq şirkətinin Azərbaycandakı nümayəndəliyi tərəfindən hədiyyələr və sertifikatlarla mükafatlandırılıblar.

Daha sonra Universitet Konfransına 5 iş göndərilməsi qərara alınıb.

Konfransın sonunda bir daha vurğulanıb ki, çıxış edən tələbələr Azərbaycanın əczaçılığının layiqli gələcəyidir.

◆ **Tibbi-profilaktika fakültəsində Tələbə Elmi Cəmiyyətinin XXXX konfransı keçirilib. Konfrans 3 bölmədə işini davam etdirib.**





Gigiyena bölməsində 7, mikrobiologiya, immunologiya və epidemiologiya bölmələrinin isə hər birində 5 məruzə dinlənilib.

Bütün bölmələrdə münsiflər heyəti kafedra müdirləri və professorlardan təşkil olunub. Ən yaxşı məruzələr diplomlara və sertifikatlara layiq görülüb.

Konfransın açılışında giriş sözü ilə təşkilat komitəsinin sədri, fakültə dekanı, dosent A.Məmmədov çıxış edib.

Konfrans diskussiya şəraitində keçirilib, tələbə və müəllimlər müzakirələrdə aktivlik göstəriblər.

# ƏMƏKDAŞIMIZIN DÖVLƏT MÜKAFATINA TƏQDİM OLUNMUŞ MONOQRAFİYASININ İCTİMAİ MÜZAKİRƏSİ OLUB

**Azərbaycan Respublikası Dövlət Mükafatları Komissiyası ictimaiyyətin geniş tanış olması, müvafiq rəylərin bildirilməsi üçün idarə və təşkilatlara, ictimai və yaradıcı birliklərə Dövlət Mükafatlarına irəli sürülmüş işləri ictimai müzakirəyə çıxarmağı tövsiyə edib.**





Bu məqsədlə Azərbaycan Tibb Universitetində I daxili xəstəliklər və reanimatologiya kafedrasının dosenti Nağdəli Zamanovun "Elm və təhsil" nəşriyyatının vəsatəti ilə komissiyaya təqdim olunmuş iki cildlik "Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti" monoqrafiyasının ictimai müzakirəsi keçirilib.

Mayın 11-də ictimai fənlər, Azərbaycan dili və nitq mədəniyyəti, xarici dillər və latın dili kafedralarının birgə təşkilatçılığı ilə baş tutan tədbiri fəlsəfə elmləri doktoru, professor Qoşqar Əliyev açaraq təkcə Azərbaycanda deyil, bütün dünyada tanınan dahi bir şəxsiyyətin zənginliyi hər kəsdə heyrət doğuran nitqini araşdırmağın çox məsuliyyətli bir iş olduğunu vurğulayıb. Heydər Əliyev nitqinin bütün çalarlarını, qətiyyətini, səmimiyyətini, müdrikliyini müxtəlif aspektlərdən təhlil edən müəllifin öz məqsədinə nail olduğunu söyləyən professor uzun illərin axtarışına söykənən və böyük zəhmət bahasına ərsəyə gələn bu monaqrafiyanı dövlət mükafatına təqdim olunmuş ən layiqli bir əsər kimi dəyərləndirib.

Azərbaycan dili və nitq mədəniyyəti kafedrasının müdiri, dosent Akif Miriyev haqqında 3 məqalə yazdığı bu tədqiqat əsərinin dilçi alimlərin tədqiqatlarından heç də geri qalmadığını, Heydər Əliyev nitqinin qiymətini verə bilən elmi tədqiqat işi olduğunu diqqətə çatdırıb.

Heydər Əliyev nitqini axar bulağa bənzədən epidemiologiya kafedrasının müdiri, professor İbadulla Ağayev bu nəhəng tarixi şəxsiyyət haqqında dilimizin bütün incəliklərinə bələd olan müəllifin qələmindən çıxan "Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti" monoqrafiyasının Dövlət Mükafatına təqdim olunmuş ən layiqli tədqiqat işi olduğunu deyib.

Şair, yazıçı-publisist, Əməkdar jurnalist Eldar İsmayıl XX və XXI əsrin ən böyük dühalarından biri Heydər Əliyevin nitqinin bir məktəb, universitet olduğunu xatırladaraq bildirib ki, belə bir şəxsiyyət haqqında kitab yazan müəllifin içində bir alov, ataş olmalıdır. Universitetimizin dosenti Nağdəli Zamanovun məhz qəlbinin səsi ilə çox böyük zəhmət sərf edərək ortaya qoyduğu bu əsər Dövlət Mükafatına layiq bir əsərdir.

Bu monoqrafiyanın Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşları, dilçi alimlər tərəfindən də yüksək qiymətləndirildiyinin şahidi olduğunu deyən professor Fəxrəddin Məmmədov tibb sahəsində çalışan Nağdəli Zamanovun dilçilik sahəsinə müraciət etməsini elmimizdə yeni bir hadisə adlandırıb. Təkbaşına az qala bir elmi tədqiqat institunun işini gördüyünü bildirib.

Professor Fərhad Talıbov tarixin bütün dönəmlərində həkimlərin həm də ədəbiyyata meyl göstərməsinə dair nümunələr gətirməklə Nağdəli Zamanovun dilçiliyə müraciət etməsinin təəccüblü olmadığını əsaslandırıb. Bu kitabın yazılmasının ilkin səbəbini Heydər Əliyev şəxsiyyətinə sonsuz sevgi ilə əlaqələndirib.

Heydər Əliyev nitqinə heyranlığını, hələ sovetlər dönəmində onun bütün çıxışlarını izlədiyini dilə gətirən peşəkar jurnalist Əsgər Əsgərov da bu tədqiqat əsərini böyük zəhmətin nəticəsi kimi qiymətləndirib.

Tədbir iştirakçıları çıxışlardakı rəylərlə həmfikir olduqlarını bildirərək N.Zamanovun "Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti" monoqrafiyasının Dövlət Mükafatına layiq görülməsinə yekdilliklə səs veriblər.

**"TƏBİB"**

# İstedadlı cərrah, şərəfli ömür sahibi

**Mehdi Məmməd-Rza oğlu Mehdiyev 1916-cı il mayın 15-də Şamaxı şəhərində xırda sənətkar ailəsində anadan olub. Atası saat ustası olan Məmməd-Rza kişi hələ Mehdi iki yaşında ikən yatalaq xəstəliyindən vəfat edir. Maddi çətinliklə əlaqədar olaraq, M.Mehdiyev anası ilə birgə Bakı şəhərinə köçür.**

"Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq (bəlli etmək) üçün ölümü və həyatı yaradan Odur. O, yenilməz qüvvət sahibidir, (çox) bağışlayandır." Mülk surəsi, 67/2

1929-30-cu illərdə orta təhsilini Bakı şəhərində aldıqdan sonra o, Sabunçuda axşam fəhlə məktəbində müəllim işləyir. 1933-cü ildə Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olur, 1938-ci ildə isə həmin institutu əla qiymətlərlə bitirərək əmək fəaliyyətini Sabirabad rayonunun Cəfərxan kənd sahə məntəqəsinin baş həkimi kimi davam etdirir. 1939-cu ilin əvvəllərində orduya çağırılır və Uzaq Şərqə hərbi xidmətə göndərilir. 7 illik hərbi xidmətdən sonra tibb xidməti mayoru rütbəsi ilə ordudan tərxis edilir. 5 ildən çox döyüş bölgəsində keçirdiyi hərbi xidməti zamanı "Döyüş xidmətlərinə görə" və "Yaponiya üzərində qələbəyə görə" medalları ilə təltif olunur. Elmi işə həvəsi olduğu üçün 1946-cı ilin əvvəllərindən professor Balakişiyevin razılığı və zəmanəti ilə Operativ Cərrahlıq kafedrasında assisent kimi işə düzəlir. Bu kafedranın rəhbəri professor Qurbanovun verdiyi xidməti xasiyyətnamədə göstərilir ki, əməkdaş Mehdi Mehdiyev çox səliqəli, bacarıqlı, intizamlı bir kadrdır.

1951-ci ildə üzərində işlədiyi namizədlik dissertasiyası mövzusunu bitirir və 31 mart 1953-cü ildə təsdiq olunmaqla ona tibb elmləri namizədi elmi dərəcəsi verilir. 1956-cı ildə İnstitut Elmi Şurasının qərarına əsasən, müsabiqə ilə Operativ Cərrahlıq kafedrasının dosenti vəzifəsinə seçilir. Bu illərdə o, bir neçə dəfə Moskvaya, həmçinin respublikamızın müxtəlif şəhər və rayonlarına elmi ezamiyyətə göndərilir. 1958-ci ildə dosent vəzifəsi Moskvada tam təsdiqini alır. 1960-cı ilə qədər onun çap edilmiş və edilməkdə olan 12 elmi məqaləsi olub.

Professor Mehdiyev 1957-1961-ci illərdə yüksək bacarığına görə respublikanın baş cərrahı vəzifəsini icra edib. 1961-ci ildə o, doktorluq dissertasiyası müdafiə etmək üçün Moskva şəhərinə SSRİ TEA-na ezam olunur. 1966-cı ildə "Renovaskulyar hipertenziyaların diaqnostikası və müalicəsi" mövzusunda müvəffəqiyyətlə doktorluq dissertasiyası müdafiə edərək tibb elmləri doktoru elmi dərəcəsini alır. Elə həmin il Ə. Əliyev adına AHTİ-da Torokal Cərrahiyyə kafedrasında dosent vəzifəsinə təyin edilir. 1968-ci ildə isə bu institutun Döş Qəfəsi Cərrahiyyəsi və Anesteziologiyası kafedrasının professoru vəzifəsini icra edir. 1969-1977-ci illərdə isə bu kafedraya rəhbərlik edir.



1978-ci ildə professor M.Mehdiyev N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun Operativ Cərrahlıq və Topoqrafik Anatomiya kafedrasına müdir təyin olunur. O zamanlar alimin 50-dən çox elmi məqaləsi nəşr edilmişdi. Onun ilk yetişdirdiyi alim-cərrah, bu kafedranın dosenti olmuş mərhum Mirzəcan Məmmədovun onun haqqında söylədiklərinə görə, Mehdi müəllim yoldaşlarına qarşı həssas, özünə, eləcə də ətrafdakılara qarşı çox tələbkar, qayğıkeş və təmiz əqidəli bir insan olub. Professor, tibb elmləri doktoru Tamara Hüseynovanın onun haqqında dediklərindən: "Professor Mehdiyev bir ümumi cərrah kimi çox savadlı, bacarıqlı, cəld, bütün cərrahiyyə qanunlarına yüksək dərəcədə riayət edən, özünə və həmkarlarına qarşı tələbkar, düzgün və saf əqidə sahibi, prinsipial bir şəxsiyyət olmuşdur. O, həm də mahir pedaqoq idi. Yüksək materiyadan sadə danışardı deyə suala ehtiyac qalmazdı. Həddən artıq tələbkar idi, lakin çox humanist və rəhmli idi. Öyrənməyə həvəsi olanlara hörmətlə yanaşardı. Özü isə öyrətməkdən bir stimul, ləzzət alardı. Emosional, həssas adam idi. Elmi şurada, iclaslarda mütləq diqqəti özünə cəlb edərdi. Çünki aydın və konkret danışardı. Hamı ona böyük hörmət bəsləyirdi"

Professor M.Mehdiyev eyni zamanda yüksək intiusiyaya malik bir insan idi. Təsadüfi deyildir ki, 1985-ci ilin əvvəllərində o, xidməti işi ilə əlaqədar Moskva şəhərinə ezam olunmamışdan öncə kafedranın kollektivindən halallıq almış, "dünyanın işini bilmək olmaz" deyərək onlardan səmimiyyətlə ayrılmışdı. Ədalətli insan idi. Ölümünə yaxın avtomobil qəzası zamanı ona xəsarət yetirmiş, təqsirkar hesab edilən sürücünü müstəntiq qarşısında müdafiə edərək "mən özüm yolu keçərkən ehtiyatsızlıq etmişdim" demişdi.

Professor M.Mehdiyev şair-həkim Abbas Səhhətin qardaşı oglu idi. Bununla fəxr edərdi. O, 1985-ci ilin yayında ömrünün 69-cu ilində Moskva şəhərində xidməti iş ilə əlaqədar ezamiyyətdə olarkən avtomobil qəzasına düşərək ağır xəsarət alır və bütün müalicə cəhdlərinə baxmayaraq vəfat edir.

İstər bir alim- cərrah, istərsə də bir insan kimi Mehdi müəllimin xatirəsi onu tanıyanların qəlbində əbədi qalacaqdır.

**Hafiz OSMANOV,**
*Biokimya kafedrasının əməkdaşı*

# Qabil Rüstəm oğlu Hüseynov

**Universitetin ictimai fənlər kafedrasına ağır itgi üz vermişdir. Kafedranın baş müəllimi Hüseynov Qabil Rüstəm oğlu 78 yaşında qəflətən vəfat etmişdir.**



Q.Hüseynov 1938-ci il iyun ayının 1-də Bakı şəhərində anadan olmuşdur. Böyük Vətən Müharibəsi dövründə valideynlərindən məhrum olduğu üçün 1955-ci ilə kimi uşaq evlərində tərbiyə almışdır. 1959-cu ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə daxil olmuş və 1964-cü ildə oranı bitirmişdir. 1964-cü ildən bir sıra respublika qəzetlərində - "Молодежь Азербайджана", "Бакинский рабочий" qəzetlərində xüsusi müxbir işləmişdir. O, həm də ATU-nun (Azərbaycan Tibb İnstitutunun) "Tibb kadrları uğrunda" qəzetinin redaktoru olmuş və onun redaktorluğu dövründə SSRİ tibb ali məktəb qəzetləri içərisində nəşr edilən ən yaxşı qəzet kimi mükafat almışdır.

Qabil müəllim 1971-1973-cü illərdə Nəsimi rayon partiya komitəsində təlimatçı, 1973-cü ildən isə universitetimizin fəlsəfə, sonra isə ictimai fənlər kafedralarında baş müəllim işləmişdir. O, işlədiyi müddətdə özünü nümunəvi, nizam-intizamlı müəllim, layiqli insan, səriştəli pedaqoq kimi göstərmişdir. Qabil müəllim vətənpərvər və humanist olmaqla yanaşı, həm də bacarıqlı təşkilatçı və ictimaiyyətçi idi. Bütün bu xüsusiyyətlər gənc kadrların təlim-tərbiyəsində və səriştəli mütəxəssis kimi yetişməsində mühüm rol oynamışdır.

Mərhum Q.Hüseynov respublika qəzetlərində xüsusi müxbir, "Tibb kadrları uğrunda" qəzetinin redaktoru və müəllim işlədiyi dövrlərdə öz aktuallığı ilə seçilən çoxlu sayda məqalələr dərc etdirmişdir.

Gözəl insan, bacarıqlı pedaqoq Qabil müəllimin əziz xatirəsi doğma kollektivin və onu tanıyanların qəlbində daim yaşayacaqdır.

Allah rəhmət eləsin, qəbri nurla dolsun!

**İctimai fənlər kafedrasının əməkdaşları**

# BASKETBOLÇULARIMIZIN QƏLƏBƏSİ

ATU-nun basketbol üzrə yığma komandası Ali Təhsil Müəssisələri arasında keçirilən Respublika Çempionatında iştirak edib.



Çempionatda 12 universitetin yığma komandası yarışıb. ATU-nun komandası qrup mərhələsində bütün rəqiblərinə qalib gələrək, yarımfinala vəsiqə əldə edib. Yarımfinalda Neft və Sənaye Universitetinə 46:20 hesabı ilə qalib gələrək, çempionatın lideri olan İdman Akademiyası ilə finalda qarşılaşıb. Peşəkar basketbolçularla qarşılaşma asan olmasa da, komandamız gərgin keçən mübarizədə gümüş medalın sahibi olublar.

Bu layiqli nəticə ilə əlaqədar, komandanın məşqçisi Sevinc İsayevanı və komanda üzvlərini təbrik edir, bu cür nailiyyətlərin davamını arzulayırıq!

**K.KƏBİRLİNSKİ,**
*"Təbib" idman klubunun sədri, professor*

# Tibb Universitetində "Nə? Harada? Nə vaxt?" turniri baş tutub

Bu günlərdə "Atəşgah" İntellektual Oyunlar Klubunun "Nə? Harada? Nə vaxt?" oyunu üzrə I Tələbə Kubokunun yarışları başa çatıb. Fəxrlə qeyd edirik ki, bu oyunlar üzrə yarışma Azərbaycan Tibb Universitetində baş tutub.



Turnirdə ölkənin səkkiz ali məktəbini təmsil edən 25 komanda iştirak edib. Yarışma zamanı dörd turda 48 sual oynanılıb. İlk üç yeri M.V.Lomonosov adına MDU-nun Bakı filialının "Zeyqarnik Effekti" komandası, "Liberiya" (Dövlət Neft və Sənaye Universiteti) və NAFTA (Bakı Ali Neft Məktəbi) tutublar.

Azərbaycan Tibb Universitetinin tələbələri də bu bilik yarışmasında layiqincə iştirak ediblər. Gərgin mübarizədən sonra ATU-nun "Invictus" komandası "Xəmsə" turniri üzrə dördüncü yeri qazanıb.

Hər iki yarışmada qaliblər kubok, medal və xatirə hədiyyələri ilə mükafatlandırılıblar.

Qeyd edək ki, 1989-cu ildə yaradılan "Atəşgah" İntellektual Oyunlar Klubu Azərbaycanda intellektual oyunlar hərəkatının beşiyi hesab edilir. Azərbaycanın ən "qocaman" İntellektual oyunlar klubu olan "Atəşgah" həm də Beynəlxalq "Nə? Harada? Nə vaxt?" Klubları Assosiasiyasının üzvüdür. Klubun yetirmələri olan bilicilərin bir neçə nəsli ölkəmizi beynəlxalq aləmdə uğurla təmsil ediblər. Klub komandaları "Nə? Harada? Nə vaxt?" oyunu üzrə mütləq dünya çempionu və Cənubi Qafqaz çempionu olub, bir sıra başqa parlaq qələbələr, uğurlar və nailiyyətlər qazanıblar.

**ATU-nun mətbuat xidməti**

# Çoxfunksiyalı konsert zalı

İspan memarı Fernando Menisin layihəsi ilə hazırlanan konsert zalı Polşanın Torun şəhərində yerləşir.



AZƏRTAC "Axinovosti" saytına istinadla bildirir ki, qırmızı kərpicdən tikilmiş konsert zalı çoxfunksiyalı olmaqla, zərif tağ formasındadır. Binanın fasadı qırmızı kərpiclə işlənmiş ağ betondandır.

Zalın dinamik işıqlandırılmasını, həmçinin tamaşaçı yerlərini opera, teatr tamaşası və konsert üçün xüsusi qurğular vasitəsilə tənzimləmək mümkündür. Bundan başqa, baş səhnəni "uzatmaq", hətta gül ləçəkləri kimi açmaq da olar.

Zalın arxitekturası isə Polşa tarixinin motivlərini özündə əks etdirir.

# Alimlər: Uşaqlarda piylənmə ana bətnində başlayır

Uşaqlarda piylənmə riski hələ ana bətnində yaranır. Alimlər xəbərdarlıq edirlər ki, hamilə qadının qanında şəkərin yüksək səviyyədə olması isə daha böyük təhlükə doğurur.



AZƏRTAC "Daily Mail"ə istinadən xəbər verir ki, Britaniya alimləri apardıqları tədqiqat nəticəsində bu qənaətə gəliblər. Onların fikrincə, qanda şəkəri normal səviyyədə olan qadınlara nisbətən diabetdən əziyyət çəkən ananın orqanizmində yağ 16 faiz çox olur.

Statistikaya görə, İngiltərədə hər il 120 min hamilə qadına diabet diaqnozu qoyulur. Ananın qanı cift vasitəsilə uşağın orqanizminə keçərək onda şəkərin yüksəlməsinə səbəb olur. Eyni zamanda, belə anaların südünü içən uşaqlarda piylənməyə meyillilik artır.

Böyük Britaniyada isə hər 11 yaşlı uşaqdan üçünün artıq çəkisi var. Alimlər deyirlər ki, belə uşaqlar xərçəng, ürək-damar xəstəliklərinə daha çox məruz qalırlar. Odur ki, piylənmə ilə mübarizəyə hələ uşaq ana bətnində ikən başlamaq lazımdır.

# Yoqa və meditasiya Altsheymer xəstəliyinə tutulma riskini azaldır



Kaliforniya Universitetində aparılan yeni tədqiqat göstərir ki, yoqa və meditasiya beyin üçün faydalıdır. Onlar insan yaddaşını gücləndirir və qazanılmış ağıldankəmlikdən qoruyur. Tədqiqatçıların sözlərinə görə, yoqa və meditasiya yaddaş məşqindən daha effektivdir. Üç ay davam edən tədqiqatda yaşı 55-dən yuxarı 25 nəfər iştirak edib.

AZƏRTAC "mednews.info" saytına istinadla xəbər verir ki, 11 iştirakçı həftədə bir dəfə bir saat davam edən yaddaş təliminə qatılıb. Həmçinin onlar yaddaşın inkişafı üçün gündə 20 dəqiqə təmrinlər yerinə yetirib. 14 könüllü isə həftədə bir dəfə 1 saat ərzində evdə qrup halında Kundalini yoqa ilə məşğul olub. Üstəlik hər gün 20 dəqiqəni Kirtan Kriyya meditasiyasına həsr edib.

Beləliklə, 12 həftə sonra ekspertlər müşahidə edib ki, hər iki könüllü qrupunda şifahi yaddaş yaxşılaşıb. Yəni onlar söz və adları daha yaxşı yadda saxlamağa başlayıblar. Lakin məkanda səmtləşdirməyə kömək edən vizual-məkan yaddaşı yoqa və meditasiya ilə məşğul olan iştirakçılarda daha çox yaxşılaşıb.

Qeyd edək ki, Hindistanda Kirtan Kriya meditasiyası yaşlı adamlarda koqnitiv pozuntuların qarşısını alma üsullarından biri kimi tanınır. Bu meditasiyaya nəğmə oxumaq, əl hərəkətləri və işığın vizuallaşdırılması daxildir.

## *Etibarsız sayılır*

II müalicə-profilaktika fakültəsinin II kurs, $243^{b}$ qrup tələbəsi Adem Erginin adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin III kurs, $274^{a}$ qrup tələbəsi Yusifzadə Aişə Mahmud qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin III kurs, $290^{a}$ qrup tələbəsi Sadıqov Fərrux Rəşid oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Tibbi profilaktika fakültəsinin IV kurs, $600^{b}$ qrup tələbəsi Hacıyev Tofiq Babalar oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin II kurs, $720^{b}$ qrup tələbəsi Batuhan Civan Engin oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin IV kurs, $801^{a}$ qrup tələbəsi Nuri Mədinə Vaqif qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin IV kurs, $310^{b}$ qrup tələbəsi Məmmədova Nuray Elşad qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

Azərbaycan dili kafedrasının və hərbi tibb fakültəsinin əməkdaşları tibbi profilaktika kafedrasının müəllimi Seymur Kazımova anası

**Nəzifə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Hərbi tibb fakültəsinin əməkdaşları HTF rəisinin tədris işləri üzrə müavini Kamandar Həsənova bacısı

**Şahəstə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
**ELDAR İSMAYIL**

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - 98$^{c}$**
**2-ci mərtəbə,**
**Tel.: 595-24-97**
**tabibqazeti@amu.edu.az**
**tabibqazeti@gmail.com**

Lisenziya H - 022633
İndeks -0269
Sayı 3000
Sifariş: 310